*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 445-451*

https://doi.org/10.62837/2025.10.445

**GÜNEL ƏLIYEVA FAIQ QIZI**
Bakı Dövlət Universitetinin magistrantı
E-mail: gunel.aliyevaa00@gmail.com

## BİLGƏ KARASUNUN ROMANLARINDA PİŞİK SİMVOLU

**Xülasə**

Bu məqalədə türk ədəbiyyatının postmodern və fəlsəfi yönümlü nümayəndələrindən biri olan Bilgə Karasunun roman yaradıcılığında pişik simvolu araşdırılır. Yazıçının əsərlərində pişik obrazı yalnız bir heyvan kimi deyil, həm də insanın varlığının və tənhalığının mənəvi axtarışlarının rəmzi daşıyıcısıdır. Xüsusilə, "Köçmüş pişiklərin bağı" hekayə toplusu, eləcə də "Bələdçi" və "Gecə" romanlarında pişik motivinin ontoloji qatları açılır. "Köçmüş pişiklərin bağı"nda pişiklər "yaddaş və ölüm", "Bələdçi"də "mənlik və məsafə", "Gecə"də isə "qorxu və sükut" simvolunu təcəssüm etdirir. Bu mənada pişiklər Karasunun qəhrəmanlarının daxili vəziyyətinin, həmçinin onların gerçəkliklə münasibətinin metaforik ifadəsinə çevrilir.

Karasu üçün pişik obrazı müstəqillik, müşahidə, təmizlik və mənəvi sakitlik rəmzidir. Bu simvol vasitəsilə yazıçı insanın təbiətlə əlaqəsini ifadə edir. Müəllifin poetikasında pişik, insanın "öz varlığı ilə təbiət arasında olan körpü" rolunu oynayır. Məqalədə pişik simvolunun mədəni-mifoloji qaynaqları, Karasu poetikasında funksional və semantik dəyəri aydınlaşdırılır, həmçinin insan–heyvan münasibətləri fəlsəfi baxımdan təhlil olunur.

**Açar sözlər:** Bilgə Karasu, pişik simvolu, modern türk ədəbiyyatı, simvolizm.

## THE SYMBOLS OF THE CAT IN BILGE KARASU'S NOVELS

**ABSTRACT**

This article examines the prose works of Bilge Karasu, one of the most significant representatives of modern and philosophical Turkish literature, focusing on the symbolic function of cats. In Karasu's fiction, cats are not merely animals but metaphoric figures embodying solitude, moral consciousness, and the human search for self-being. Particularly in "The garden of departed cats" (Göçmüş Kediler Bahçesi), "The guide" (Kılavuz), and "The night" (Gece), the cat imagery carries ethical and ontological implications. The paper explores the mythological origins, cultural layers, and semiotic depth of the cat symbol within Karasu's poetics. The study concludes that the cat in Karasu's works represents the inner journey of man toward silence and essence. Through these representations, the cat becomes a mediator between the human being and the metaphysical reality surrounding him. Within this framework, Karasu's use of the cat reveals his inclination toward

mystical thought and existential inquiry, positioning the animal not as a passive figure but as an active participant in the human search for meaning.

**Keywords:** Bilge Karasu, cat symbolism, modern Turkish literature, symbolism, existential philosophy, ethics.

**Резюме**

В данной статье рассматривается романная творчество одного из постмодернистских и философски ориентированных представителей турецкой литературы — Бильге Карасу — на основе символа кошки. В произведениях писателя образ кошки представлен не только как животное, но и как символическое воплощение таких человеческих проблем, как существование, одиночество и духовные поиски. Особенно в сборнике рассказов «Сад переселившихся кошек», а также в романах «Проводник» (*Bələdçi*) и «Ночь» (*Gecə*) раскрываются онтологические пласты мотива кошки. В «Саде переселившихся кошек» кошки символизируют «память и смерть», в «Проводнике» — «самость и дистанцию», а в «Ночи» — «страх и молчание». В этом смысле кошки становятся метафорическим выражением внутреннего состояния героев Карасу, а также их отношения к реальности.

Для Карасу образ кошки является символом независимости, наблюдательности, чистоты и духовного покоя. Посредством этого символа писатель выражает связь человека с природой. В поэтике автора кошка играет роль «моста между существом человека и природой». В статье анализируются культурно-мифологические источники символа кошки, его функциональное и семантическое значение в поэтике Карасу, а также философская интерпретация отношений между человеком и животным.

**Ключевые слова:** Бильге Карасу, символ кошки, современная турецкая литература, символизм.

## GİRİŞ

XX əsr türk ədəbiyyatında simvolizmin fərdi şüur səviyyəsində formalaşmasında Bilgə Karasunun (1930–1995) yaradıcılığı xüsusi yer tutur. O, öz bədii dili və fəlsəfi dərinliyə yönəlmiş yazı tərzi ilə həm ədəbiyyatşünasların, həm də filosofların diqqətini cəlb etmişdir. Karasu üçün ədəbiyyat, yalnız hadisələrin təqdimatı deyil, "düşüncənin və vicdanın özünü ifadə etdiyi məkan"dır. Bilgə Karasu türk nəsrinin XX əsrdə keçirdiyi estetik transformasiyanın ən mühüm mərhələlərindən birini təmsil edir. Onun yaradıcılığı modernizm və postmodernizm arasında keçid mərhələsində formalaşmış dil vasitəsilə mənəviyyat və varlıq kimi anlayışları bədii müstəviyə gətirən nadir yazı sistemlərindən biridir. Karasu həm yazıçı, həm də filosof kimi insanın dünyadakı yerini, tənhalığını və əxlaqi məsuliyyətini sorğulayan şəxsiyyət olmuşdur. Yazıçının estetik baxışları struktur baxımından Avropa

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 445-451*

modernizminin, məzmun baxımından isə Şərq mistik düşüncəsinin təsiri ilə formalaşmışdır. O, öz yaradıcılığında həm Qərb fəlsəfəsinin (Fridrix Nitsşe, Jan Pol Sartr, Sorn Kyerkeqor), həm də sufi ənənəsinin dərinliklərinə enir. Son illərdə bədii əsərlərdə heyvan simvollarının fəlsəfi baxımdan dəyərləndirilməsi Avropa və türk ədəbiyyatşünaslığında ayrıca tədqiqat sahəsi kimi geniş yayılmışdır. Karasu üçün simvol yalnız estetik vasitə deyil, insan şüurunun işləmə mexanizmini açan açardır. Bilgə Karasu bu axının türk nəsrindəki erkən və ən orijinal təmsilçilərindən biridir. Onun əsərlərində simvolik strukturlar insanın həm öz varlığını, həm də başqası ilə münasibətini dərk etmə cəhdidir. Bu mənada pişik, quş, işıq, sükut, qaranlıq kimi motivlər bir-birini tamamlayan simvollar sistemini yaradır. Tədqiqatçı Ayşegül Yüksel müsahibələrindən birində deyir: "Karasuda simvol təsvirin dərin qatında gizlənən bir fəlsəfi duyumdur. O, oxucunu hadisədən çox məna axtarışına yönəldir". Onun yaradıcılığında heyvan obrazları ,xüsusilə, "pişik" insan mənəviyyatının simvolik təzahür formalarından biridir. Karasu pişiyi həm müşahidəçi, həm də insanın iç dünyasına bələd olan bir varlıq kimi təqdim edir. Bu mənada pişik obrazı yazıçının dünyagörüşündə həm sükutun, həm daxili azadlığın, həm də mənəvi məsafənin rəmzi kimi çıxış edir. Pişik motivi Karasunun ən çox "Köçmüş pişiklərin bağı" hekayə toplusunda mərkəzi mövqedə olsa da, onların izləri "Gecə" və "Bələdçi" romanlarında da özünü göstərir. "Köçmüş pişiklərin bağı"nda pişiklər həm yaddaşın, həm ölümün, həm də insanın təkliyə qarşı mübarizəsini simvolizə edir. Müəllif "pişiklər bir növ insanın sükutda bərqərar olan tərəfidir" – deyə bildirir .

Bilgə Karasunun yaradıcılığında pişik simvolu "Gecə" və "Bələdçi" romanlarında daha aydın şəkildə özünü göstərir. "Gecə"də pişik obrazı həm müşahidəçi, həm də gizli bir varlıq kimi təqdim olunur. Bu obraz qaranlıq, qorxu və insanın iç dünyası ilə üzləşməsi kimi mövzularla sıx bağlıdır. Pişik burada həm susqun şahid kimi, həm də insanın içindəki instinktiv, bəzən təhlükəli tərəfin metaforası kimi çıxış edir. Romanın çoxqatlı strukturu içində pişik görünməyən, amma hiss edilən bir varlığın təcəssümü kimi yazıçının "gecə" anlayışı ilə qurduğu simvolik əlaqəni gücləndirir .

"Bələdçi" romanında isə pişik simvolu daha çox tənhalıq və insanın öz varlığını dərk etmə prosesi ilə əlaqələndirilir. Əsərdə pişiyin varlığı bəzən qəhrəmanın daxili sükunət axtarışının, bəzən də onun şüurundakı çaşqınlığın əks-sədası kimi təsvir olunur. Pişik burada həm real, həm də metaforik səviyyədə mövcuddur: o, bələdçilik edən, amma eyni zamanda sükut içində müşahidə edən bir varlıq rolundadır. Bu xüsusiyyətləri ilə pişik Karasunun fəlsəfi üslubuna uyğun olaraq insanın öz mənliyinə aparan "bələdçi" funksiyasını daşıyır.

Məqalənin məqsədi Bilgə Karasunun romanlarında pişik obrazının semantik, simvolik və fəlsəfi qatlarını araşdırmaq, həmin obrazın yazıçının ümumi bədii-estetik sistemində tutduğu yeri müəyyənləşdirməkdir. Bu tədqiqatda pişik simvolunun Karasunun romanlarındakı təzahür formaları, müəllifin insan, sevgi, ölüm, qorxu və

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 445-451*

kimlik anlayışlarını ifadə etmək üçün istifadə etdiyi bədii vasitə kimi funksiyaları təhlil olunur.

**Əsas hissə**

Bilgə Karasu haqqında aparılan tədqiqatlarda pişiklərə müxtəlif yanaşmaları görmək mümkündür. Lakin pişik onun həyatında bir obraz olaraq daha əvvəl yer alıb . *"Heyvanlardan pişiklə, şəhərlərdən isə İstanbulla — Bəyoğlu hissəsində onunla tanış olduq. Bu tanışlıq irəlilədikcə pişiklərin insan surətləri və ya insana məxsus duyğu,düşüncələrin aid edilə biləcəyi varlıqlar olmadığını anladım."("Lağımlararası ya da Beyoğlu",2017 ,s58)* -deyə danışdığı bu tanışlıq hekayəsini daha sonralar uzun illər davam edəcək bir "pişiksevərlik" duyğusu izlədi . Uşaqlıq dövründən başlayan bu maraq, pişiklərlə qurduğu çoxqatlı əlaqə onu elə cəzb edirdi ki, kiçik yaşlarında Bəyoğlunda arxasınca pişiklər düşən "Pişikli Məryəm"in ardınca getmək üçün anasının əlindən qurtulmağa çalışırdı. Elə bu "pişikli qadın" sonradan bir gün onun əsərlərində də özünə yer tapdı.

Ancaq Karasunu valeh edən bu maraqlı heyvan eyni zamanda onun həyatında asanlıqla unudulmayacaq bir kədərin də səbəbi olur. Lağımlararası və ya Bəyoğlu'nda (2017) adlı əsərində o, bu uşaqlıq xatirəsindən üstüörtülü şəkildə belə bəhs edir : *"Pişiyi olmayan yeganə ev yəqin bizimki idi. İllər sonra bir pişik aldığımızda, ev o pişiyi qəbul etməyəcəkdi və mənim əlimlə, xüsusi diqqət göstərərək, bütün qəddarlığımla, onu sonu naməlum bir yola çıxaracaqdım." (s.40)* Ev əhli istəmədiyi üçün ilk pişiyini öz əlləri ilə aparıb Şişlidəki Heyvanları Qoruma Cəmiyyətinə təhvil verdiyi, ondan ayrılmaq məcburiyyətində qaldığı gün evə qayıdanda içindəki dözülməz qəzəblə və böyük səs-küylə saatlarla pianosunun arxasında Frans Listin əsərlərini ifa edərək bütün evi bir-birinə qatdı. *"Siz götürün... nə edirsiniz edin... Evdə istəmirlər...' – kimi bir şeylər mızıldanıram, əlimdəki Ferençi uzadaraq. Adam anlayırmı, bilmirəm. Pişiyi alır, qapı üzümə bağlanır. Evə dönüb bütün qəzəbimlə, bütün gücümlə List çalıram. Günlərlə çalacam, evi səsə qərq edərək." (Lağımlararası ya da Beyoğlu, 2017:s63)*

Bilgənin çox sevdiyi macar musiqiçi Frans Listin Macarca tələffüzlə kiçildilmiş adı "Ferenç" olduğu üçün onun ilk pişiyinin adı da Ferenç idi. İllər sonra baxdığı, yoldaşlıq etdiyi pişiklərin dilini həmişə "pişik macarcası" kimi təsvir etməsi də elə buradan — ilk pişiyi Ferençin bir növ "macar" olmasından irəli gəlirdi. Ferençi tərk etmək məcburiyyətində qalması az qala unudulmaz bir təsir buraxmış, bu təsirin izləri illər sonra da davam etmişdi. Həyatının fərqli dönəmlərində bir çox pişiyi olmuş və onlara dərin sevgiylə bağlanmışdı. Bu pişiklər ən yaxın dostuna hətta ailəsinin bir üzvünə çevrilmişdi. Buna görə də, pişiklə insanın münasibəti Bilgənin üzərində çox düşündüyü və əsərlərində tez-tez müraciət etdiyi məsələlərdən biri olmuşdur. Həm hekayələrində, həm də romanlarında bu simvola fəlsəfi qatları aralayarkən ən dərin fikirlərin ifadə üsulu kimi rast gəlirik. Lakin Karasunun pişiklərə verdiyi dəyərlə əlaqəli olaraq əsərlərindəki pişikləri fərqli duyğuların

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 445-451*

təmsilçisi rolunda və hər birini fərdiləşmiş şəkildə təsvir edir. "Gecə" romanında pişiklər onun digər əsərlərində olduğu kimi insanla varlıq arasındakı sərhədi təmsil edən qorxunun, həm də müəmmanın simvolu kimi çıxış edir. Roman ümumiyyətlə zorakılıq, nəzarət və gecənin metafizik atmosferi üzərində qurulduğuna görə, pişiklər burada həm səssiz şahid, həm də insanın daxili dünyasındakı qaranlıq tərəflərin təcəssümü kimi görünür. "Gecə" romanında təsvir edildiyi kimi, qaranlıqda yaşaya bilmək bəzən pis xüsusiyyət olaraq da dəyərləndirilə bilər. Həyatın qaranlıq tərəfində də varlığını çətinlik çəkmədən davam etdirə bilmək, bir növ pis xasiyyətin göstəricisi sayıla bilər. Pişik kimi çox fərqli aralıqlara girib-çıxa bilən, qurd, siçan və ya quş kimi canlılarla eyni məsafədə dayana bilən bir varlıq bir az da qorxu yaradır. Birdən-birə peyda olanda təkcə haradan gəldiyi deyil, hansı zamandan gəldiyi də anlaşılmaz qalır.

Həm həyatın bir parçası, həm də onun göstəricisi olan pişik, digər varlıqlarla da yaxşı münasibət qura bilir. O, hər cür işıqda, məkanda, zamanda, fəsildə, səsdə və qoxuda rahat ola bilir. Həyatın qaranlıq tərəfindən uzaq durmaması dəyişkən situasiyalarda yolunu asanlıqla tapmasına şərait yaradır. Bir çox başqa heyvanlarda da bu cür xüsusiyyətlər olsa da, pişiyin insani və qeyri-insani aləmlər arasında rahat keçid edə bilməsi ona əlavə bir üstünlük qazandırır. O da yollarda əzilsə, əziyyət görsə belə öz mahiyyətini itirmədən insana yaxın qala bilən nadir bir canlı kimi təsvir olunub.*"Pişiklər gecənin içindən keçirlər.Addımlarının səsi eşidilmir. Elə bil onlar qaranlığın özüdür. "("Gecə ",2020,s45)* Qaranlıq tərəfdə də yolunu itirmədən və çox yorulmadan evinə dönə bilir. Nə digər heyvanlar kimi varlığın vəhşi tərəfində sağ qalmaq uğrunda mübarizə aparır, nə də insanın yanında oturub qaranlığa qarşı olan təbii müqavimətini itirir.

Karasuda pişiklər heç vaxt sadəcə ev heyvanı deyil — onlar hiss və düşüncə arasındakı keçid məqamlarını təmsil edir, bəzən insanın özünə yadlaşmasını, bəzən də başqalığın sükut içindəki varlığını ifadə edir.Pişiklər hər zaman müəllifə insanlardan daha yaxın dost, sirdaş olmuşdur. Pişiklər onu qınamır, aldatmır, ən əsası da mənfəət güdərək mehribanlıq göstərmir. *"Bəzən pişiklə danışmaq istəyirdim. Bəlkə insanla danışmaqdan daha rahat olardı." ("Gecə",2020,s102)*

"Bələdçi " romanında isə pişiyi ən müstəqil obrazlardan birinə çevirir . Əsərin pişiyi "Gümüş"dür. Gürbilek tədqiqatlarında "Gümüş"ü onun narahatlıq yaradan, qorxulu təbiəti ilə bütün hekayədəki təşvişin, xəyal ilə gerçək arasındakı anlaşılmazlığın bir göstəricisi kimi xarakterizə edir . Hekayənin əsas qəhrəmanı Uğur isə Gümüşü dünyanın təbii varlıqlarından biri saysa da, eyni zamanda evin ən ağılasığmaz varlığı olduğunu düşünür: *"Gündüz harada olduğunu bilirəm: yatağımın üstündə. Günün saatlarına görə yerini dəyişir.Amma elə bil oradan tərpənmir. Yeməyini, südünü verəndə isə dərhal yanımda olur. Gecə harada yatır, hələ də anlaya bilmirəm. Evə haradan girib-çıxır, bilmirəm; heç bir qapını, pəncərəni açmağımı istəmir. Dəqiq eyvandakı saxsılara da dəymir. Eyvan isə ikinci*

*mərtəbədədir, heç bir keçid yoxdur. Gümüş üçün də... Nə qəribə! Bu qədər vaxtdır, bir yerdə yaşayırıq, amma bu sualların heç birini özümə vermədən yaşamağa davam edirəm. Pişiklərin ağılasığmazlığını əvvəldən qəbul edirik." ("Bələdçi" ,2023,s54)*

Evin içərisinə haradan girib-çıxdığı belə bilinməyən bir canlı kimi Gümüş, doğrudan da əsərdə başdan-başa sirli obrazlardan biridir. Evin sahibi Yılmaz bəy, bir səfərdən qayıdanda Uğura Qoyanın bir tablosunun surətini hədiyyə edir. Altında *"Ağlın yuxuya getməsi bədheybətlər doğurur."* sözləri yazılmış olan bu rəsm barədə Uğur belə deyir:

*"Yarasalar, bayquşlar, pişiklər- gecə qaranlığının varlıqları, gücsüz anlarımızın uğursuz düşmənləri yuxuda yatan adamı başlangıcı olmayan bir qorxunun qapqara şüaları ilə əhatə edirdilər." ("Bələdçi",2023,s.79)*

Rəsmə baxarkən nədənsə əli "qorxunun tarixindən xəbərsiz yuxuya dalmış" Gümüşə uzanır. Uğur, pişiklərin bu tabloda qaranlığın və qorxunun vasitəsi kimi göstərilməsinə etiraz edir. Gümüşün sahibinin yəni, Yılmaz bəyin bir neçə gün sonra evə qayıdışına qarşı göstərdiyi qəribə laqeydliyi, həmçinin Yılmaz bəyin də ona eyni laqeydliklə yanaşdığını fərq edir: *"Gümüş də anlaşılmazlığını, narahatlıq yaradan təbiətini, qorxuncluğunu öz ölçüsünə görə gətirib bu ənənəyə qatmırmı ?" ("Bələdçi",2023,s80)*

Yenə də Uğur qərara gəlir ki, rəsmdəki pişiklərə tarix boyu yüklənən "uğursuzluq" mənasından çox əslində "qorxuncluq" xüsusiyyəti aiddir. Pişiklərin simvollaşdırılması ilə razılaşmır. Heyvanlar əsərlərdə metafor kimi yer alırlar. Uğurun rəsmdəki pişikləri şərh etdiyi hissəni isə onun yanında uzanan Gümüş adlı pişik tamamlayır. Rəsmdəki pişik fiquru ilə Uğurun yanında uzanan Gümüşün eyni anda təqdim olunması, oxucu qarşısında Gümüşün məhz özü kimi ön plana çıxmasına şərait yaradır. Uğur fikrə dalarkən Gümüş gerçək bir pişiyin edəcəyi kimi onun əllərini bir dişləyib bir yalayır və ya Uğurun əli Gümüşə uzanır və onun mırıltısı yavaş-yavaş yüksəlir . Göründüyü kimi, Gümüş bu hissədə nə fiqur, nə alleqorik təmsil, nə də metafordur. Əksinə, adi pişik kimi təsvir olunmuşdur. Rəsmdəki pişik fiquru ilə Gümüşün eyni anda – birinin bir şeyin təmsili, digərinin isə "özü" kimi təqdim olunması bir ziddiyyət yaradır. Bu ziddiyyət isə oxucunu təəccübləndirməyə yönəlmiş bir yazı manevrası kimi yozula bilər.

*"Bələdçi"* romanının qəhrəmanları mətnin quruluşu içində daim dəyişir və oxucunu çaşdırır. Onlar haqqında nəsə bir ipucu tapdığınızı düşündüyünüz anda, dərhal yeni bir sual yaranır. Bu anlaşılmazlıq və sürprizlərə açıq təbiət Gümüş üçün də keçərlidir. Günlər sonra evə qayıdan sahibinə qarşı laqeyd davranan və digər pişiklər kimi sahibi ilə "küsmə–barışma" oyunu oynamadığını düşündüyümüz Gümüşdən Yılmaz bəy soruşur: "*Barışdıqmı?*" — və əlavə edir: — *"İyirmi gündür, məndən inciyib."* (s.84) Gümüş bütün bu xüsusiyyətləri ilə, məhz Uğurun vurğuladığı kimi ən doğru və ən qısa şəkildə anlaşılmaz bir varlıqdır.

**Nəticə**

Heyvanlara incəsənətdə mühüm anlamlar yüklənir. Ədəbiyyat isə bunun ən aydın şəkildə göründüyü sahələrdən biridir. Bununla belə, heyvanlar ədəbiyyatda adətən metafor, simvol kimi təmsil vasitələri ilə yer alır. Bilgə Karasunun "Bələdçi" və "Gecə" romanlarında pişik obrazı insanın estetik baxışının ən mühüm ifadə vasitələrindən biridir. Pişik, bu əsərlərdə nə tamamilə simvolik bir fiqur, nə də sadəcə müşahidə edilən bir varlıqdır. O, insanın varlıqla, qorxu ilə və mənəvi təkliyi ilə qarşılaşmasında vasitəçi bir mövqedə dayanır.

"Bələdçi"də pişik obrazı bələdçilik anlayışının özünə paralel şəkildə, insanı tanıma və anlama prosesini simvollaşdırmadan onu "hiss etdirən" bir varlıq kimi çıxış edir. "Gecə" romanında isə pişik, qaranlığın, susqunluğun və qeyri-müəyyənliyin içində varlığın davamlılığını təcəssüm etdirir. Hər iki əsərdə pişik, dilin və süjetin sərhədlərini aşan bir başqa canlı kimi təqdim olunur. Bu mənada, Karasunun pişikləri oxucuya yalnız bədii bir obraz olaraq deyil, həm də insanın öz varlığı ilə münasibətini yenidən düşünmək üçün fəlsəfi bir çağırış kimi görünür.

**İstifadə olunmuş ədəbiyyat**

1. Karasu Bilge. "Gece". İstanbul: Metis Yayınları, 2020. 233 s.
2. Karasu Bilge. "Kılavuz". İstanbul: Metis Yayınları, 2023. 110 s.
3. Karasu Bilge "Lağımlararası ya da Beyoğlu".İstanbul: Metis Yayınları,2017.232 s.
4. Adem Gergöy. "Başka" Hayvan Başka Dil: Bilge Karasu Yazınında Temsil Sorunu". ". [Elektron resurs] https://dergipark.org.tr/tr/download/article-file/809001
5. Yasemin Koç." Gel Pisi Pisi: Bilge Karasu'nun Kedileri". ". [Elektron resurs] https://dergipark.org.tr/tr/download/article-file/607506
6. Uyanık Bilal. "Bilge Karasu'nun Gece Adlı Romanının Göstergebilimsel Çözümlemesi". İstanbul: İstanbul Üniversitesi, 2020. 134 s.
7. Özata Jale. "Bilge Karasu'nun Gece'sine Metin ve Okur Odaklı Yaklaşım". Ankara: Hacettepe Üniversitesi, 2003. 110 s.
8. Nalbant Elif. "Gece Romanında Modernizm Eleştirisi". İzmir: Ege Üniversitesi, 2023. 20 s.

**Rəyçi: Prof. Ağayeva Firuzə Abdulla qızı**